yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur










2 SEÇ Kİ...

3 BORCUMUZU ÖDƏYİRİKMİ?

4 SEVGİ İLƏ NECƏ ÖYRƏDƏK

6 "ÇIX LÖVHƏYƏ – KEÇ ƏYLƏŞ"DƏN "BƏXTƏ ŞAH ABBAS"A GEDƏN YOL



HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 OKTYABR 2018-Cİ İL

№016 (75)


## GÜRCÜSTAN VƏ ABŞ MÜDAFİƏ NAZİRLƏRİ ARASINDA GÖRÜŞ KEÇİRİLİB



Belçikanın paytaxtı Brüsseldə Gürcüstanın müdafiə naziri Levan İzoriya ilə ABŞ-ın müdafiə naziri Ceyms Mettis arasında görüş keçirilib. Bu barədə Gürcüstan Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, ABŞ Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü tam dəstəkləyir: "ABŞ bir daha Gürcüstanın bir gün NATO-nun üzvü olacağı ilə bağlı öhdəliyini təsdiqləyir".

L.İzoriya bildirib ki, C.Mettislə görüşdə Gürcüstan və ABŞ-ın strateji tərəfdaş olduğu bir daha vurğulanıb: "Gürcüstanda son illər həyata keçirilmiş islahatlar, ölkənin müdafiə qabiliyyəti ilə bağlı məsələlər və NATO formatında əməkdaşlığın perspektivləri müzakirə olundu".

## MAMUKA BAXTADZE: "GÜRCÜSTANIN NATO-YA ÜZVLÜYÜ REGİONU DAHA DAYANAQLI EDƏCƏK"



"Gürcüstanın NATO-ya üzvlüyü regionu daha dayanaqlı edəcək". Bunu Gürcüstanın baş naziri Mamuka Baxtadze "Bloomberg"ə müsahibəsində deyib.

Baş nazir qeyd edib ki, bir neçə ay bundan öncə NATO-ya bütün üzv ölkələr Gürcüstanın Alyansın üzvü olacağını bir daha təsdiq ediblər: "Bizim əsas məqsədimiz Avropa İttifaqı və NATO-nun tamhüquqlu üzvü olmaqdır. Bunun üçün bizim çox konkret səbəblərimiz var. Əlbəttə ki, Gürcüstanın NATO-ya üzvlüyü bizim regionu daha dayanaqlı və daha firavan edəcək. İnanırıq ki, Gürcüstanın NATO-ya üzvlüyü yalnız ölkə üçün deyil, regiona da böyük üstünlük verəcək. Hesab edirik, bu, həmçinin Rusiyanın da maraqlarına uyğun gəlir".

M.Baxtadze müsahibəsində həmçinin Gürcüstan iqtisadiyyatında son illər əldə olunan nailiyyətlərə də toxunub. "Gürcüstan regionda Avropa İttifaqı və Çin ilə azad ticarət rejimi olduğu yeganə ölkədir. Bizim məqsədimiz Gürcüstanı beynəlxalq ticarət, loqistika, turizm, təhsil üçün regional haba çevirməkdir. Gürcüstan "Bir kəmər, bir yol" təşəbbüsü də daxil olmaqla bütün əsas layihələrdə iştirak edir", - deyə M.Baxtadze bildirib.

## ƏRDOĞAN: TÜRKİYƏ TEZLİKLƏ SURİYANIN ŞİMALINDA YENİ HƏRBİ ƏMƏLİYYATLARA BAŞLAYACAQ



Türkiyə PYD-YPG terrorçularının məhv edilməsi üçün tezliklə Suriyanın şimalında, Mənbic bölgəsində yeni hərbi əməliyyatlara başlayacaq. Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib.

Dövlət başçısı bildirib ki, Türkiyə Silahlı Qüvvələri dəfələrlə öz gücünü sübut edib.

R.T.Ərdoğan qeyd edib ki, Türkiyə terrorçuları tam məhv edənədək onlarla mübarizə aparacaq.

## GÜRCÜSTANDA BEYNƏLXALQ TİCARƏT PALATASININ KOMMERSİYA ARBİTRAJININ ƏSASI QOYULACAQ

Gürcüstanda Beynəlxalq Ticarət Palatasının kommersiya arbitrajının əsası qoyulacaq. Bu haqda Gürcüstanın baş naziri Mamuka Baxtadze bildirib.

Onun qeyd etdiyinə görə, Gürcüstan dekabrın 20-də Parisdə Beynəlxalq Arbitrajla qeyd olunan razılığa imza atacaq.

"Bizim istəyimiz odur ki, Gürcüstan region üçün iqtisadi və maliyyə mərkəzinə çevrilsin. Biz təşəbbüs haqqında danışacağıq. İlk olaraq çox vacib hadisə olacaq – 20 dekabrda biz Beynəlxalq Arbitrajla Parisdə razılaşma imzalayacağıq. Bunun əsasında Gürcüstanda Beynəlxalq Ticarət Palatasının kommersiya arbitrajının əsası qoyulacaq. Bu o deməkdir ki, Gürcüstan faktiki olaraq Avropada biznes təklif edən və iqtisadi aktivliyi həvəsləndirən ikinci ölkə olacaq. Bu, arbitraj istiqamətində mövcud olan ən yüksək pillədir. Bu, Gürcüstan hökumətinin qlobal iqtisadiyyata inteqrasiya olması üçün hər şey etməsinə dair daha bir mesajdır. Gürcüstan bunu bacarsa biz regionda maliyyə mərkəzi olacağıq. Məqsədimizə nail olmağımız üçün bu, vacib şərtdir", - deyə M.Baxtadze bildirib.

## YANVARIN 1-DƏN PENSİYA 20 LARİ ARTACAQ

2019-cu ilin 1 yanvarından pensiya 20 lari artaraq 200 lari olacaq. Pensiyanın artmasını 2019-cu ilin büdcə layihəsi nəzərdə tutur.

2019-cu ilin ölkənin əsas maddi sənədinin izahat kartında yazıldığına görə, "sosial müdafiə və pensiya təminatı üçün 2 684.2 milyon lari ayrılıb və bunun 1 925.0 milyon larisi əhalinin pensiya təminatına sərf olunacaq. Bunun çərçivəsində 2019-cu ilin 1 yanvarından pensiyanın 20 lari dəyərində artırılması nəzərdə tutulur".

Qeyd edək ki, Gürcüstanda pensiya 2016-cı ilin iyulundan 180 lariyə qədər artıb.

2017-ci ilin büdcəsi ilə indiki pensiya təminatı üçün 1.7 milyard lari ayrılıb.



# SEÇ Kİ...

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**Prezident seçkilərinə 13 gün qaldı. Yenə də hər dəfə olduğu kimi üç-dörd namizəddən başqa azərbaycanlıların kompakt yaşadığı bölgələrə baş çəkən olmadı. Hətta Gürcüstan prezidentliyinə, yenə təkrar edirəm, Gürcüstan prezidentliyinə namizədlərdən biri – Şalva Natelaşvili Samtsxe-Cavaxeti və Kvemo Kartlidə seçkiqabağı təbliğatın mənasız olduğunu söylədi, buna səbəb olaraq isə adı çəkilən bölgələrdə yaşayan azərbaycanlıların və ermənilərin bütün seçkilərdə qonşu Azərbaycandan və Ermanistandan göstərişlər gözlədiklərini bildirdi. Xub.**

Ümumiyyətlə, bu seçkilərin namizədlərinin təbliğat-təşviqat plakatlarının yapışqanı qopmuş kənarlarını əsdirən yüngül mehdən ksenofobiya qoxusu gəldi. Plakatlar demişkən, namizədlərin şəkilləri, şüarları ilə fotoşoplanmış plakatların hara gəldi yapışdırılması seçki mədəniyyətinin hələ Avropanın kandarında belə olmadığını göstərir, o ki qaldı seçkilərin özünə. Böyük Stanislavskinin təbirincə desək, seçkilər plakat yapışdırmaqdan başlayır. Bu il plakatları yapışdırmaq üçün xüsusi lövhələrin qoyulmasına baxmayaraq yenə də parkların, sakinlərin hasarlarının, dayanacaqların, mağazaların, elektrik dirəklərinin, hətta ağacların üzərində yarı cırılmış, qopardılmış, bir namizədin şəklinin üstünə digər namizədin pərçimlənmiş şəkillərini görmək olar. Əlbəttə, prezidentliyə namizədlər küçə-küçə düşüb onun-bunun hasarına, darvazasına, ağacına şəkil yapışdırmır. Günahı yerli sakinlərin üzərinə də yazmaq istəmirəm. Qoy günahkar yenə də nəzarətsizlik olsun. Yuxarıda yarı təəssüf, yarı qəzəblə azərbaycanlıların yaşadığı bölgələrə 25 namizəddən 3-4-nün baş çəkdiyini qeyd etdim. Təsəvvür edin, 3-4 namizədin plakatları az qala hər yerə yapışdırılır, 25 namizədinki yapışdırılsa ətrafımız nəyə oxşayar.

Hər dəfə seçkilər əhalinin yadında namizədlərin yarı cırılmış, qopardılmış şəkilləri ilə qalır. Hətta ötən seçkilərdən qalmış, günəşin, yağışın, küləyin xarab edə bilmədiyi rəngi saralmış, solmuş plakatlar da bir növ seçkilərə qatılaraq əhaliyə altdan-altdan gizli mesajlar göndərir sanki.

Bu seçkilər isə mənim yadımda hələ ki, namizədlərin dillə bağlı dedikləri sözlərlə qaldı. Məsələn, müstəqil namizəd Salome Zurabişvilinin Marneulidə əhali ilə keçirdiyi görüşdə "Gürcüstanda yaşayan azərbaycanlılar öz doğma ana dillərini mütləq qoruyub saxlamalı və gələcək nəsillərə ötürməlidirlər" ifadəsi, birləşmiş müxalifətin namizədi Qriqol Vaşadzenin şərq dillərinin birinci sinifdən uşaqlara öyrədilməsi ilə bağlı çıxışı, "Qirçi"nin namizədi Zurab Caparidzenin internet vasitəsi ilə azərbaycanlılara Azərbaycan dilində müraciət oxuması. Bir də namizədlərin plakatlarında Azərbaycan dilinin ötən illərə nisbətən düzgün, səhvsiz yazılması. Buna da bir xub.

**Yekunda isə onu demək istəyirəm ki, əhali, seçici namizədi plakatdan, şəkildən tanımamalıdır, canlı görməli, sualını verməli, üz-üzə söhbət etməlidir. Əhali namizədin yanına yox, namizəd əhalinin yanına getməlidir. Bəzən namizədlərin heç adını, soyadını, hətta şəklini də tanımırlar, rəqəm olaraq tanıyırlar. Bölgələrə, şəhərlərə, kəndlərə namizədlərin şəkillərindən qabaq özləri getməlidir. Bunu cənab Şalva və qeyri-gürcü əhalinin kompakt yaşadığı bölgələrə getməyən, getməyi özünə sığışdırmayan, həmin bölgələrin heç yolunu tanımayan digər namizədlər kimi mənasız hesab etməməlidir. Prezident olmaq istəyən bütün ölkənin prezidenti olur hər halda, paytaxtın və ya hansısa bölgənin yox, bütün vətəndaşların vətəndaşı olduğu dövlətin prezidenti olur, hansısa etnik qrupun yox. Ölkəni regionlara bölən, vətəndaşları millətlərə ayıran, qeyri-gürcü vətəndaşları seçkidən-seçkiyə yad edən, Kvemo Kartli əhalisini yalnız elektorat olaraq görən namizəddən prezident olmaz. Axı seçkiqabağı olduğu kimi, seçkidalı da var, cənab namizədlər.**

## M.BAXTADZE: "GÜRCÜSTANA GƏLMƏDƏN ŞİRKƏT VƏ BANK HESABININ QEYDİYYATINI HƏYATA KEÇİRMƏK MÜMKÜN OLACAQ"

"Gürcüstanda gələn ilin yanvarın 1-dən etibarən elektron rezident proqramı tətbiq olunacaq". Bunu Gürcüstanın baş naziri Mamuka Baxtadze bildirib.



Hökumət başçısı deyib ki, 34 ölkənin vətəndaşı Gürcüstana gəlmədən şirkət və bank hesabının qeydiyyatını həyata keçirə biləcək: "Bu təşəbbüs inqilabi əhəmiyyətə malikdir və Gürcüstanın maliyyə mərkəzinə çevrilməsinə imkan verəcək. Xarici ölkə vətəndaşları Gürcüstanda mövcud güzəştli vergi rejimlərindən istifadə edəcəklər".

M.Baxtadzenin sözlərinə görə, 34 ölkənin, təqribən, hamısı iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdir.

## GÜRCÜSTAN VƏ UKRAYNA ARASINDA GEDİŞ-GƏLİŞ ID KARTLA MÜMKÜN OLACAQ



Gürcüstan və Ukrayna arasında gediş-gəliş ID kartla (şəxsiyyət vəsiqəsi ilə) mümkün olacaq. Razılığı Gürcüstanın baş naziri Mamuka Baxtadze və Ukraynanın baş naziri Volodimer Qroysman 5 oktyabr tarixində imzalayıblar.

İmza mərasimi Gürcüstan və Ukraynanın baş nazirlərinin geniş formatda görüşündən sonra baş tutub və mərasimdə hökumət üzvləri iştirak ediblər.

Baş nazirlər Gürcüstan və Ukraynanın gələcəkdə də ikitərəfli və çoxtərəfli formatlarda bir-birinə qarşılıqlı dəstək göstərmələrini davam etdirəcəklərinə dair hazır olduqlarını qeyd ediblər.

## GÜRCÜSTANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN TƏHRİF OLUNDUĞU XƏRİTƏLƏRİ HAZIRLAYANLAR CƏZALANDIRILACAQ

Gürcüstanda dövlətin ərazi bütövlüyünün təhrif olunduğu xəritələrə görə cəza tətbiq ediləcək. Bu, ölkənin Cinayət Məcəlləsinə ediləcək dəyişikliklər layihəsində əksini tapıb.




Layihəyə əsasən, Gürcüstanın işğal altında olan Abxaziya və Cənubi Osetiya bölgələrinin əks olunmadığı xəritələrin hazırlanması, yayılması, satışı, reklamı və idxal-ixracına görə cərimə, yaxud iki ilədək həbs cəzası tətbiq olunacaq.

Dəyişikliklər layihəsinin müəllifləri parlamentin Müdafiə və təhlükəsizlik komitəsinin sədri İrakli Sesiaşvili və komitə üzvü Otar Çrdilelidir. Sənəd bu yaxınlarda parlamentə təqdim ediləcək.

İ.Sesiaşvili bildirib ki, Gürcüstanın ərazi bütövlüyünün təhrif olunduğu xəritələrin yayılması Gürcüstan konstitusiyası, qanunvericiliyi və beynəlxalq hüquq normalarını pozur. O, bu cür hallara qarşı cəzaların tətbiq edilməsinin zəruri olduğunu qeyd edib.

## GÜRCÜSTANDA HİV-Ə YOLUXANLARIN SAYI ARTIR




Gürcüstanda cari ilin 9 ayında 517 HİV-ə yoluxma faktı qeydə alınıb. Bu, 2017-ci illə müqayisədə 49 fakt çoxdur. Bu barədə Gürcüstanın Elmi-Tədqiqat İmmunologiya Mərkəzi məlumat yayıb.

Məlumata görə, bu gün ölkədə 7 min 283 nəfər HİV-ə yoluxmuş xəstə var. Onların 5400-nü kişilər, 1800-nü qadınlar təşkil edir. Bu xəstəliyə yoluxanların böyük əksəriyyəti 29-39 yaş arasında olan insanlardır.

Ölkədə QİÇS-ə yoluxanların sayı isə 3700-ü ötüb. Bugünədək QİÇS-dən 1400 nəfər dünyasını dəyişib. Hazırda 4400 nəfər, o cümlədən 48 uşaq bu xəstəlikdən müalicə alır.

Gürcüstanda HİV-ə yoluxanların ən çoxu paytaxt Tbilisidə qeydə alınıb – 2600 nəfər. Mərkəzin məlumatına görə, ölkədə HİV-ə yoluxma halları durmadan artır.

## TÜRKİYƏ MƏHKƏMƏSİ AMERİKALI KEŞİŞ BRANSONU AZAD EDİB



Türkiyənin İzmir şəhər məhkəməsi amerikalı keşiş Endryu Bransona 3 il 1 ay 15 gün həbs cəzası verib və onu ev dustaqlığından azad edib.

Məhkəmə Bransonun nəzarətdə olduğu müddəti nəzərə alaraq onun üzərindən cəzanı, o cümlədən xaricə çıxmaq qadağasını aradaq qaldırıb.

Əvvəllər məhkəmə keşişin vəkillərinin apelyasiyasını üç dəfə rədd etmişdi.

Qeyd edək ki, Bransonun işi ilə əlaqədar Vaşinqtonla Ankaranın münasibətləri xeyli gərginləşmişdi. 2016-cı ildə həbs edilən amerikalı keşiş dövlət çevrilişinə cəhddə əli olmaqda və PKK ilə əlaqədə şübhəli bilinirdi. Avqust ayının əvvəllərində ABŞ-ın Maliyyə Nazirliyi Türkiyənin ədliyyə naziri Əbdülhəmid Gül və daxili işlər naziri Süleyman Soyluya qarşı "insan haqlarının ciddi pozulması" ittihamı ilə sanksiya tətbiq etmişdi.

Bundan sonra ABŞ prezidenti Donald Tramp Türkiyədən idxal edilən alüminium və poladın rüsumlarını artırmışdı. Ankara isə buna cavab olaraq Amerika istehsalı olan bir sıra məhsulların, o cümlədən tütün, spirtli içkilər, avtomobil, kosmetik vasitələr, düyü və meyvələrin rüsumunu qaldırmışdı.

## "TÜRK AXINI" TƏBİİ QAZ BORU KƏMƏRİNİN DƏNİZ HİSSƏSİNİN 85 FAİZİ HAZIRDIR



"Türk axını" ("TurkStream") təbii qaz boru kəmərinin dəniz hissəsinin 85 faizi hazırdır. Bu barədə Rusiyanın energetika naziri Aleksandr Novak deyib.

A.Novak bildirib ki, 2019-cu ilin sonunda boru kəməri ilə qaz nəqlinə başlanacaq: "2019-cu ilin sonuna qədər boru kəmərinin həm quru, həm də dəniz hissəsini tamamlamağı nəzərdə tuturuq".

Nazir dənizin dibi ilə "Poseidon" adlı başqa bir təbii qaz boru kəməri layihəsinin də nəzərdən keçirildiyini, lakin hələlik yekun qərarın verilmədiyini deyib.

Qeyd edək ki, Rusiyanın "Gazprom" şirkətinin idarə heyətinin sədri Aleksey Miller ötən həftə deyib ki, "TurkStream"in dəniz hissəsinin tikintisi iki ay ərzində başa çatacaq.

Ümumi uzunluğu 1100 kilometr olacaq "TurkStream" boru kəmərinin dənizdən keçən hissəsi 930 kilometrdir. "TurkStream"in dəniz borularını "Pioneering Spirit" gəmisi düzür. Rusiyanın xüsusi iqtisadi zonasında "TurkStream"in ikinci xəttinin tikintisi yekunlaşıb. İndiyə qədər iki xətt üzrə 1520 kilometrdən çox boru döşənib.

Rusiya qazını Türkiyəyə və Avropaya çatdıracaq "TurkStream"in əsas rezervini Yeni Urenqoyda çıxarılan təbii qaz təşkil edəcək. Yeni Urenqoyda 12 trilyon kubmetrlik təbii qaz ehtiyatı "Gazprom"un yataqlarındakı ümumi ehtiyatların 70 faizini təşkil edir. Boru kəmərinin ilk xəttinin Türkiyənin təbii qaza olan hazırki tələbatının təxminən 35 faizini ödəyə biləcək. Kəmərin ikinci xəttinin Türkiyə sularında inşası üçün bütün lazımi icazələr alınıb. Türkiyə "TurkStream"in dəniz hissəsini tikən şirkətdən vergi almayacaq. Türkiyədəki təbii qaz qəbulu terminalı İstanbulun təxminən 100 kilometr qərbində yerləşən Kıyıköy bölgəsində tikilir. Buraya gələn qaz Türkiyənin "Botaş" şirkəti tərəfindən inşa ediləcək xətt ilə Lüleburqazdan beynəlxalq qaz şəbəkəsinə veriləcək. "TurkStream" layihəsi üzrə ikinci xətlə təbii qazın Türkiyə-Yunanıstan sərhədində, İpsala yaxınlarında Avropaya göndərilməsi planlaşdırılır. Lakin bu marşrut hələ ki müzakirə edilir, təbii qazı alacaq və daşıyacaq ölkələrlə danışıqlar aparılır. "Gazprom" cari ildə "Türk axını" layihəsinə 3,2 milyard dollar vəsait sərf edəcək.

Boru kəməri iki xətdən ibarət olacaq və hər biri 15,75 milyard kubmetr təbii qaz daşıyacaq. "TurkStream" boru kəməri ilə Rusiya təbii qazının Türkiyəyə və Avropaya nəqli planlaşdırılır. Layihə Qara dəniz üzərindən Türkiyənin Avropa hissəsinədək və daha sonra Yunanıstan sərhədinədək qaz boru kəmərinin tikintisini nəzərdə tutur. Boru kəmərinin birinci xətti Türkiyə bazarı, ikincisi Cənubi və Cənub-Şərqi Avropa ölkələri üçün nəzərdə tutulur. Layihənin dəyəri 7 milyard ABŞ dolları qiymətləndirilir. Boru kəməri ilə qaz nəqlinin 2019-cu ilin dekabr ayından başlayacağı gözlənilir.

## SON 20 İLDƏ DÜNYADA TƏBİİ FƏLAKƏT QURBANLARININ SAYI AÇIQLANIB

Son 20 ildə dünyada baş verən təbii fəlakətlər nəticəsində 1,3 milyon insan ölüb, 2,9 trilyon ABŞ dollarından artıq maddi ziyan vurulub. Bu barədə BMT-nin Təbii Fəlakətlər Təhlükəsini Azaltma Ofisinin (UNISDR) məruzəsində bildirilib.

Qeyd olunub ki, 1998-2017-ci illər ərzində təbii fəlakətlərlə bağlı dünyadakı maliyyə itkiləri 251 faiz artıb. Təbii fəlakətlərdən zərər çəkən ölkələrin maliyyə ziyanı 2,908 trilyon ABŞ dolları təşkil edib ki, bunun da 77%-i meteoroloji hadisələrin payına düşür.

Təbii fəlakətlər üzündən ən çox maliyyə itkiləri ilə üzləşən ölkələr ABŞ (944,8 milyard dollar), Çin (492,2 milyard dollar), Yaponiya (376,3 milyard dollar) və Hindistandır (79,5 milyard dollar).

## BORCUMUZU ÖDƏYİRİKMİ?



Hacı BƏKİROĞLU
*hacibakir@mail.ru*

**Son dövrlərdə artıq elə bir dəb düşüb ki, hər kəs alacağı əşyanı, hətta geyindiyi paltarı belə kreditlə alır. Sonra isə hər ay oldu-olmadı məcbur bir yerdən tapıb bu kredit borcunu ödəyir ki, üzərinə cərimə gəlməsin. Yaxşı bilir ki, cərimələr üst-üstə yığılarsa sonda bu borcun əvəzi olaraq mülkiyyətinə əl qoyulacaq. Heç bir şəxs də mən bu borcu ödəmirəm deyə bilməz. Desə də bu ancaq boş bir söz olar. Bu səbəblə də borcu ödəmək üçün ağır- yüngül demədən pul qazanmaq üçün çalışmalı olarsınız.**

Bəs gəlin indi görək Allaha olan borcumuzu ödəyirikmi? Bu sözə çox adam "Allaha nə borcumuz var ki?" deyir. Allah Qurani-Kərimin "Zariyat" surəsinin 56-cı ayəsində "Mən, cinləri və insanları yalnız mənə ibadət etsinlər deyə yaratdım" buyurur. İndi gəlin görək bizim Allaha borcumuz varmı? Bəli, var, həm də ibadət borcumuz var. Bu qədər neməti önümüzə sərən, bizi kainatın xəlifəsi edən Allaha ibadət etməyi belə özümüzə sığışdırmırıq. Zamanı verənə zaman ayıra bilmirik. Allah bizə o qədər çox nemət verib ki, saymaqla bitirmək mümkün deyil. Qarşılığında çox kiçik bir şey istəmiş. Quranı oxuyun öyrənin və ibadət edin.

Namaz qılın, oruc tutun, zəkat verin deyərək kiçik vəzifələrlə bizləri məsul tutmuşdur uca Yaradan. Kiçik deyirəm, çünki həyatdakı zaman diliminə görə dəyərləndirsək zamanımızın onda birini belə əhatə etmir bu ibadətlərə ayıracağımız vaxt. Namaz qılmaq gündə 5 dəfədir. Bunu da 10 dəqiqədən hesablasaq 50 dəqiqə, lap elə 1 saat, 2 saat olsun. Gün 24 saatdır, geri qalan 22 saatı yenə sənindir. Oruc tutmaq 12 ayın 1 ayını, ya da 365 günün 30 gününü əhatə edir. Zəkat vermək malının qırxda bir hissəsinə aiddir. O da varsa verərsiniz. Əgər yoxdursa şərt deyil. Zənnimcə başqa nümunəyə ehtiyac yoxdur.

Allah bu dünyada o qədər çox nemət verməklə kifayətlənməmiş, axirət həyatında da bir çox nemətlərlə bizləri mükafatlandıracağını vəd etmişdir. Bunları da bizlərə çətin görünən, ancaq ağıllı bir başla düşünüldüyündə verdiklərinə nisbətən az qarşılıq olan ibadətləri yerinə gətirdiyimiz təqdirdə verəcəyini bildirmişdir.

Biz bu ibadətləri bir borc olaraq misal verdik. Əslində isə ağıllı bir insan bu ibadətləri bir borc olaraq yox, bir təşəkkür olaraq yerinə yetirər.

**Gəlin bu misallarla mövzunu bağlayaq. Günümüzdə inkişaf edən texnologiyalara baxaraq heyran qalırıq. Hər gün bir yenisi çıxan telefonlardakı kameraların meqapikselllərinə heyrət edirik. Ancaq bunlardan milyonlarca dəfə üstün olan göz nemətini bizə verə Allaha şükr edirikmi? Telefonlarımızın və ya yaddaş kartlarının böyüklüyünə maraq edirik, bəs öz yaddaşımızı xatırlayırıqmı? Bunun kimi yüzlərlə misal çəkmək olar. Elə isə gəlin bizlərə bu nemətləri bəxş edən Allaha üz tutaq, şükrümüzü və ya borcumuzu yerinə yetirək. Çünki bu həyat müvəqqətidir. Bu həyatın bir mükafatı və bir cəzası olacaq. Bizlər də mükafat alan qullardan olaq.**

# SEVGİ İLƏ NECƏ ÖYRƏDƏK

**"Gəlin hər birimiz özümüzdən soruşaq, həyatımız boyunca həqiqətən sevən neçə nəfər insana rast gəlmişik. Məsələ heç də elə deyil ki, insanlar sevgini əhəmiyyətsiz hesab edirlər, əksinə, onlar sevgi istəyirlər. Xoşbəxt və bədbəxt sevgi hekayəsi haqqında çoxlu filmlərə baxırlar. Sevgi haqqında yüzlərlə axmaq mahnıya qulaq asırlar, amma güman ki, onlardan heç biri sevgini öyrənməyin vacib olduğunu düşünmürlər!"**

***Erix Fromm, "Sevmək sənəti".***



Neçə dəfə bu frazaları eşidibsiniz: "Müəllim sevgi ilə öyrətməlidir", "Sevgisiz auditoriyaya daxil olmamalısan", "Uşağı sevmirsənsə öyrədə bilməzsən", "Əsas sevgidir"... və s. İlk baxışdan sanki hamı bilir "sevgi ilə öyrətmək" nə deməkdir, amma bunu deyən adamdan izah tələb etsəniz hansı cavabı alacağınızı görərsiniz. Məlum olacaq ki, bu sevgini hamı fərqli başa düşür və tamamilə fərqli şeylər nəzərdə tuturlar. Nə deməkdir ki, şagird (tələbə) öz müəllimini çox sevir, o qədər çox sevir ki, ona görə həmin müəllimin tədris etdiyi fənnin müəllimi olmağa qərar verir. Şagirdin pedaqoqunu sevmədiyi fəndən zəhləsi gedir, amma müəllimini sevdiyi fənni də sevir. Və nə alınır? Bu zaman bizim seçimimiz hanı və həqiqətdə gələcək ixtisasımızı necə seçirik, "sevimli müəllim" əsasında? Əksər hallarda belədir və indi davam edək və izah edək "sevimli müəllim", "sevimli lektor" nə deməkdir? O, nə edir və sevimli olmayan müəllimdən nə ilə fərqlənir?

Əgər heç vaxt heç kəs bizə öyrətməyibsə və yalnız yaradılmış stereotiplərə əsasən müzakirə edirikə, necə başa düşə bilərik ki, həqiqi sevgi nədir. Ola bilsin siz "sevimli müəllim" deyəndə səmimisiniz (mənə də çox vaxt deyiblər), amma mənim təcrübəmdə onlar çox hallarda biliklə "kompromisə gedənlər" və "can-ciyər müəllimlərdir" (Bəli, belə qiymətləndirmə də eşitmişəm: "Ah, necə can-ciyər müəllimdir"), qiymətləri asan şəkildə yazırlar, valideynlərdən nəyisə gizlədirlər və özlərini şagirdin real olaraq onlardan hansı biliyi əldə etdiyi düşüncəsi ilə narahat etmirlər. Əlbəttə, elə "sevimli müəllimlər" də var ki, həqiqətən bilik sevgisi ilə əlaqədardırlar, amma belələri tək-tükdür. Mən indi istisnalardan deyil, yenə də sistemdən yazıram.

Qısa olaraq, bu anlayışların izahı üçün həqiqətən də heç vaxt çıxa bilməyəcəyiniz labirintə düşəcəksiniz.

Əgər məktəb (universitet) bilik ötürmə yeridirsə, o zaman biz müəllimi yeganə meyarla qiymətləndirə bilərik – "bizə biliyi necə ötürdü", ondan hansı biliyi əldə etdik?

Müasir cəmiyyətdə və təhsil sistemində sevginin primitiv anlayışı sistemi daha da kiçildir. Müəllim ya "ciddi və ədalətlidir" ya da "can-ciyər və sevimli". Nadir hallarda eşidərsiniz ki, sevgi biliyə olan sevgi ilə əlaqədar olsun. Yəqin bu dəyişən sistemdə başqa cür sevgi nə mövcud, nə də xilas olmayacaq.

Həqiqi müəllim heç vaxt şagirdə yalnız öz fənnini sevməyi öyrətmir, bu, elmi alçaltmaqdır. Həqiqi müəllim həmişə çalışır ki, öz fənni vasitəsilə şagirddə fikir, düşüncə oyatsın, maraq, bacarıqlar yaratsın ki, şagird öz bacarıqlarını daha yaxşı göstərə biləcəyi peşəni seçsin.

Həmçinin "günün yarısını məktəbdə məşğul olub, digər yarısını ailəyə qulluq etmək" motivi ilə müəllimlik peşəsini əksər hallarda qadınların seçməsi də sistemin günahıdır. Məktəbdə kişi müəllimin çatışmamazlığı təhsil sisteminin daha bir səhvidir, amma bu, başqa mövzudur.

"Uşaqlara təhsili sevdir", "Məktəbi sevdir", "Vətəni sevdir"! – bu şüarlar bütün düşüncə və emosiyalardan uzaq olan boş sözlərdir. Müəllimlər şagirdlərə təhsili necə sevdirirlər? Əksər hallarda: zorla, aqressiya ilə, qışqırıb-bağırmaqla, üzünə vurmaqla... Gələcəyə ümidlə: "İndi əziyyət çəkəcəksən, amma sonra mənə sağ ol deyəcəksən", "Əvəzində sonra kişi (qadın) olacaqsan". Sonra hansısa şagird deyəcək: "Məni daha çox döyməli idin ki, oxuyaydım"...! Bax, bu zaman ikitərəfli bədbəxtliyi... sistemin qurbanı olan adamlar zəncirini hiss edirəm...

Mədəniyyət (mədəniyyətsizlik) tərəfindən bu cür təlqin edilmiş sevginin sonda aparıb çıxardığı: "Sevir və ona görə döyür...!", "Sevirdi və ona görə öldürdü...", Sevməsə reaksiya göstərməzdi? Sevirdi... elə sevirdi ki, öldürdü! Neçə belə hadisələr eşitmişik? Öldürmək yalnız fiziki deyil, psixoloji olaraq da adamlar bir-birini hər gün öldürürlər, bu da başqa mövzudur.

Mən yenə də əsas mövzuya qayıdıram: Sevgi və təhsil... "Sevgi ilə öyrədir", "sevgisiz öyrədir" nə deməkdir? Əsasən, belə adlanan sevgini qayğı ilə əlaqələndirirlər, belə qayğı isə təhsillə kompromisdir. Sevgiyə gəldikdə isə, əlbəttə, bunu hamı bilir, "həqiqi sevgini" hamı bilir və arqument olaraq gündəlik həyatımızda bu cür istifadə edirik: "Sevgi ilə görülən iş" və təsəvvürümüz belə yoxdur ki, burada nə nəzərdə tutulur, əsasən bizim nəzərdə tutduğumuz, biz isə təcrübəmiz olanı nəzərdə tuturuq və ilaxır...

Hələ sevgini öyrənək və sonra sevgi ilə öyrədək!

Sevgi öyrənilmir... (artıq şərhi eşidirəm!) – əlbəttə, sevgini necə öyrənmək bir qabiliyyətdir... Ax, bu "qabiliyyətli və tənbəl" gürcülər! Ürəklə hiss etməlisən ... – Bəs necə? Ürəklə... və bilirsiniz, adamlar ürəklə nə hiss edirlər və sevgini necə hiss edirlər? – Necə fikirlər daşıyırlarsa məhz ürəklə də və bədənin başqa orqanları ilə də elə hiss edirlər. Adam deyir ki, bax, bu elə şeirdir (mahnıdır, filmdir...) elə bil canımda qarışqalar gəzir və sən bu "dari-durinin" arasında düşünürsən ki, görəsən hansı növ qarışqalar gəzir? Tanış gəldi, elə deyilmi? Bax, budur... O da ürəyi ilə hiss edir və sonra qarışqalar peydah olurlar... Sizin öz qarışqalarınız var və sizin qurdlarınız başqa qidalarla və şeirlərlə qidalanırlar...

İlia Universitetində poeziya mühazirələri oxumağa başladım, çox adam təəccüblə soruşurdu: – Poeziyanı necə öyrədirsiniz...? Necə ola bilər ki, poeziya və şeir yazmaq öyrədəsiniz...?

Ümumiyyətlə, başa düşmürəm "şeir yazmağı" niyə öyrətməlisən və poeziyanın tədrisi niyə kiminsə başının üstündə əlində qamçı ilə durub və "tez ol, şeir yaz, yoxsa sənə qiymət yazmayacağam" anlayışına bağlanmalıdır? Amma yenə də stereotip: Poeziyanın tədrisi sən demə "şeir yazmağın" öyrədilməsi imiş... Sakit cavab verirdim – həyəcanlanmayın, adamlar, mən yalnız şeirin oxunmasını (dərk edilməsini) və fikrini öyrədirəm... – O necə olur? Necəsini dərslərimə gəlin və başa düşəcəksiniz... Qısa olaraq deyim, sonra elə oldu ki, bu kurs çox uğurlu alındı və mənim əsas məqsədim də artıq sirr olaraq qalmadı: ruhda poeziyanın oyadılması mümkündür, düşünmək mümkündür... Dəyişmiş fikirlə adamların maarifləndirilməsini zənginləşdirmək mümkündür... Əgər bu, kiməsə az görsənirsə, demək onun poeziyanın əhəmiyyəti haqqında ümumiyyətlə təsəvvürü yoxdur.

Poeziyanın öyrənilməsi ki, mümkün oldu... İndi düşünürəm bu netodla sevginin öyrənilməsi də mümkündür... Hələ imkan verin, həyəcanlanmayın və hücuma keçməyin! Onu da izah edəcəm ki, nəyi nəzərdə tuturam. Mübahisəsizdir ki, dünyada ədəbiyyat, rəssamlıq, musiqi və incəsənətin başqa sahələri kimi "sevgi haqqında" da bilik toplanılıb. İnsanların müəyyən qabiliyyəti var və sonra bu qabiliyyəti inkişaf etdirirlər, konservatoriyada, rəssamlıq akademiyasında və başqa-başqa yerlərdə oxuyurlar... Əgər düşünürsünüzsə ki, sevgini onsuz da "əzbər bilirsiniz" və ona nə öyrənmək, nə inkişaf lazımdır... Çox yanılırsınız... Və ya düşünürsünüzsə ki, sənətlə sevgi müqayisə edilməzdir, o zaman yüz qat yanılırsınız... Əgər düşünürsünüzsə ki, "sevgini öyrənmək" mümkün deyil, yaxşı, düzsünüz... öyrənmək mümkün deyil, amma sevgini biliklə "oyatmaq" həqiqətən mümkündür...

Platonun hekayəsindən bilirsiniz ki, Sokratın cəmi iki müəllimi olub və onlardan biri Mantinealı Diotima ona "sevgi haqqında" öyrədən qadın olub... Siz Sokrat deyilsiniz, bunu da bilirəm, amma yenə də...

Tsira BARBAKADZE
Gürcü dilindən tərcümə:
**Aynurə ƏLİYEVA**

## NOBEL MÜKAFATININ QALİBLƏRİNİN ADLARI AÇIQLANIB

Bu ilin fizika sahəsinə aid Nobel mükafatının sahibləri lazer fizikasına dair mühüm kəşflərinə görə Artur Eşkin, Jerar Mur, Donna Strikland olublar. Bu barədə İsveç Kral Elmlər Akademiyasının Nobel Fizika Komitəsi məlumat yayıb.

A.Eşkin optik cımbız hazırlaması və bioloji sistemlərlə əlaqədar istifadə etməsi, J.Mur və D.Strikland isə yüksək intensivliyə malik qısa optik siqnallar yaratmağın üsulunu kəşf etdiklərinə görə nüfuzlu mükafata layiq görülüblər.

Bu il kimya sahəsində Nobel mükafatının qalibləri isə molekulların təkamülünə dair araşdırmalarına görə Fransis Arnold, Corc Smit, Qreqori Uinter olublar. Mükafatçıların tədqiqatları həm də yeni dərmanların yaradılmasına şərait yaradır.

Qeyd edək ki, bu il hər bir Nobel mükafatının məbləği 9 milyon İsveç kronu, yaxud 1 milyon ABŞ dollarıdır.

2018-ci il üzrə Nobel Sülh Mükafatının qalibləri isə konqolu həkim Deni Mukvege və İraqın yezidi kürd əsilli hüquq müdafiəçisi Nadia Murad olublar.

Onlar müharibə və hərbi münaqişələr zamanı cinsi zorakılığa qarşı apardıqları mübarizəyə görə mükafatlandırılıblar.

Qeyd edək ki, bu il mükafata Almaniya kansleri Angela Merkel, ABŞ prezidenti Donald Tramp, Şimali Koreya lideri Kim Çen In, hüquq müdafiəçisi Amal Kluni namizəd göstərilmişdi.

# MİXEİL BATİAŞVİLİ: “2022-Cİ İLDƏ MÜƏLLİMLƏRİN ORTA ƏMƏK HAQQININ 1500 LARİ OLMASINA NAİL OLACAĞIQ”

Təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili müəllimlərin əmək haqqının hansı prinsiplə artırılacağını və bunun baza əmək haqqına təsir edib-etməyəcəyini konkret olaraq qeyd etməyib. Ancaq bildirib ki, hansısa istiqamətdə müəllimlərin əmək haqlarının artırılması həyata keçiriləcək və təxminən 1500 lariyə çatacaq. Lakin bu, 2022-ci ildə nail olunacaq plandır.

Sistemdə planlaşdırılmış reformalar və pedaqoqların əmək haqqı məsələsi ilə bağlı Mixeil Batiaşvili “İmedi” televiziyasına bildirib: “Məktəblərdə müxtəlif istiqamətlərdə dəyişikliklər olacaq. Bu, məktəbin infrastrukturu və pedaqoqlarla bağlıdır. Bu istiqamətdə ətraflı planımız var. Məsələn, bir il ərzində 10 000 pedaqoqun əmək haqqı artacaq. Hər il hansısa istiqamətdə artım olacaq. Düşünürük ki, 2022-ci ildə biz artıq müəllimlərin orta əmək haqqının 1500 lari olmasına nail olacağıq. Bu, həqiqətən də hansısa vəd deyil, yaxşı hesablanmışdır. Bu olduqca vacibdir, çünki reforma üçün müvafiq olaraq yüksək maaşlı pedaqoq lazımdır, motivasiyanın böyük önəmi var, onların əməyi qiymətləndirilməlidir”.

Nazirin sözlərinə görə, reformaların baxışı 5 il üçün nəzərdə tutulub və onun müasir gənclərin tələblərinə cavab verməsi əsasdır.

“Sistem reformalarının baxışını 5 il üçün nəzərdə tutmuşuq ki, hər il nə həyata keçirilməlidir. Bu baxışda reformaların maddi təminatı da nəzərə alınıb. Əsas odur ki, gənclərin tələblərinə uyğun olan sistem yaradaq. Çünki bizim möhtəşəm gənclərimiz var. Bugünkü dərs modelinin dəyişikliyə ehtiyacı var. Uşaqlar bu gün olduqca irəlidədirlər, ağıllıdırlar və mövcud olan sistemimiz bugünkü tələblərə



tam uyğun deyil”, - deyə təhsil, elm, mədəniyyət və idman naziri bildirib.

## PEŞƏ PROQRAMLARI ÜÇÜN ƏRİZƏLƏRİN QƏBULUNA BAŞLANILIB



Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi 3 oktyabrdan 19 oktyabr da daxil olmaqla peşə təhsili almaq istəyənlərin qeydiyyatını elan edir. Bu mövzuda Peşə Təhsilinin İnkişaf Departamentinin rəhbəri İrina Dzerodze brifinq keçirib.

9-cu sinif təhsili olan Gürcüstan vətəndaşlarının Gürcüstanın bütün regionlarında, dövlətin tam maliyyəsi ilə turizm, inşaat, mühəndislik, kənd təsərrüfatı, nəqliyyat, incəsənət, informasiya texnologiyaları və başqa istiqamətlərdə istədikləri peşəyə sahib olmaq imkanı var.

İstəyi olanlar işə əsaslanan təhsil yanaşması ilə həyata keçirilən peşə proqramını seçə bilərlər. Bu, kənd təsərrüfatı, inşaat, turizm və dəmiryolu nəqliyyatı istiqamətində mümkündür. Tədris prosesinə 40-a qədər şirkət qoşulub.

Peşə təhsili almaq üçün yaş həddi təyin olunmayıb. Şəxsiyyət vəsiqəsi ilə Gürcüstan miqyasında mövcud olan tədris resurs mərkəzlərində və peşə tədris proqramlarını həyata keçirən müəssisələrdə qeydiyyatdan keçmək mümkündür. Müraciət edənlər elektron (onlayn) olaraq vet.emis.ge veb-səhifəsində də qeydiyyatdan keçə bilərlər. Bir istiqamət altında olan bir neçə proqrama qeydiyyat olmaq mümkündür. Qeydiyyatdan keçmiş aplikanta bir neçə gün ərzində imtahan kartı veriləcək və orada testləşdirmənin yeri və tarixi haqqında məlumat qeyd olunacaq.

Testləşdirmənin nəticələrindən sonra aplikantların qeydiyyat zamanı etdikləri seçimlərə baxmaq, həmçinin bir istiqamət altında istədikləri proqramların siyahısını aldıqları balları və ötən ilin statistik göstəricilərini nəzərə alaraq dəyişmək imkanları olacaq.

Peşə testləşdirməsi haqqında məlumat və testlərin nümunələri onlayn qeydiyyat portalında yerləşdirilib. Xüsusi tədris ehtiyacı olan şəxslər də yuxarıda qeyd olunan prosedur əsasında qeydiyyatdan keçə bilərlər, ancaq onlar alternativ peşə testlərindən istifadə edəcəklər.

Bu il ilk dəfə dual proqramlar məhdud imkanları olan şəxslər üçün əlçatan olacaq. Eləcə də ötən illərdə olduğu kimi cari payız qəbulunda da dil maneəsinə görə peşə təhsili ala bilməyən milli azlıq nümayəndələri olan Gürcüstan vətəndaşlarının testləşdirməni Azərbaycan, rus və erməni dillərində keçmək imkanları olacaq. Qəbul olduqdan sonra onlar gürcü dilinin tədris modulunu keçəcəklər.

## MİLLİ MÜƏLLİM MÜKAFATININ SAHİBİ MƏLUM OLUB

2018-ci ilin Milli Müəllim Mükafatının sahibi Bağdat şəhərinin 2-ci ictimai məktəbinin ingilis və rus dili müəllimi Manana Kapetivadze olub. Qalibə mükafat olaraq 10 min lari verilib. O, həmçinin hər il baş tutan Qlobal Müəllim Mükafatı (The Global Teacher Prize) mərasimində iştirak edəcək.



Mükafatlandırma mərasimi oktyabrın 5-i Müəllimlər günü baş tutub.

Manana Kapetivadzedən başqa 2018-ci ilin Milli Müəllim Mükafatının beşliyində aşağıdakı müəllimlər yer alıb:

Eliso Abramişvili – Saçxeri şəhəri İ. Cavcavadze adına 2 saylı ictimai məktəbin kimya müəllimi.

Caba Labadze – Daba Suraminin 2 saylı ictimai məktəbinin tarix müəllimi.

Lela Kotoraşvili – Tbilisi müqəddəs Giorgi adına beynəlxalq məktəbin gürcü dili və ədəbiyyatı müəllimi.

Daçi Nanobaşvili – “Loqos” Tbilisi Beynəlxalq Akademiyasının riyaziyyat müəllimi.

Milli Müəllim Mükafatının əsasını ötən il “Təhsil hamı üçün – Gürcüstan” koalisiyası qoyub və onun birinci qalibi Çabati məktəbinin müəllimi Lado Apxazava olub.

Mükafatın əsasını qoyanların bəyanatına görə, məqsəd uğurlu müəllimlərin aşkarlanması, onların cəmiyyətə təqdim olunması və bu yolla müəllimlik peşəsinin prestijinin artırılmasıdır.



## “1+4 TƏDRİS PROQRAMI”

Keyfiyyətli təhsilin əlçatanlığı və dövlət dilini bilmək etnik azlıqların ictimai həyatın bütün sahələrinə qoşulması üçün vacib şərtdir. Belə ki, dövlət siyasəti təhsilin əlçatan olmasının daha da artırılmasına, dövlət dilinin mənimsənilməsinin təkmilləşdirilməsinə istiqamətlənib. Bu istiqamətdə konkret addımlar atılıb. 2010-cu ildən etnik azlıq nümayəndələrinin Gürcüstanda asanlaşdırılmış qaydada ali təhsil almaq imkanı var. Asanlaşdırılmış sistem, yəni “1+4 proqramı” ümumi bacarıqlar imtahanının Azərbaycan, abxaz, osetin, erməni dillərində verilməsini və müvafiq bal toplayan zaman ali təhsil almaq imkanı verir. Gənclər 1 il ərzində gürcü dili üzrə hazırlıq kursu keçirlər və sonra 60 kredit topladıqları halda təhsillərini istədikləri fakültədə davam etdirirlər.

2010-cu ildən ali təhsil müəssisələrində etnik azlıq nümayəndələrindən olan tələbələrin sayı olduqca artmaqdadır və bu, birmənalı şəkildə qeyd olunan proqramın xidmətidir.

**Statistika:**

İllərə əsasən qəbul olmuş qeyri-gürcüdilli tələbələrin sayı:

- 2010-cu il - 247 tələbə
- 2011-ci il - 430 tələbə
- 2012-ci il - 589 tələbə
- 2013-cü il - 890 tələbə
- 2014-cü il - 673 tələbə
- 2015-ci il - 741 tələbə
- 2016-cı il - 960 tələbə
- 2017-ci il - 1047 tələbə

## M.BATİAŞVİLİ TƏHSİL NAZİRLİYİNİN 4 YENİ “İCTİMAİ HÜQUQİ ŞƏXS”İNİN RƏHBƏRLƏRİNİN KİMLİYİNİ AÇIQLAYIB

Təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili nazirliyin 4 yeni “ictimai hüquqi şəxs”inin rəhbərlərinin kimliyini xüsusən təşkil edilmiş brifinqdə açıqlayıb.



Müəllimlərin Milli Peşəkar İnkişaf Mərkəzinin rəhbəri Berika Şukakidze olub. Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi Sopo Qorqodzeyə təhvil verilib. Təhsilin Keyfiyyəti üzrə Milli İnkişaf Mərkəzinin rəhbəri vəzifəsini Giorgi Vaşakidze tutub. Rustaveli Elmi Fonduna isə Zviad Qabisoniya rəhbərlik edəcək.



# "ÇIX LÖVHƏYƏ – KEÇ ƏYLƏŞ"DƏN "BƏXTƏ ŞAH ABBAS"A GEDƏN YOL

Həmid SADIX
Kalinin ictimai məktəbinin köməkçi müəllimi

***Bizim məktəblər standart şagird yetişdirir. Əzbərçini sevməyə-sevməyə əzbərçi yetişdirir. Çünki gəl-danış, keç-otur üslubu şagirdə heç nə vermir. Qiymət yazmaq, qiymət yazdırtmaq təəssüratı bağışlayan üslub şagirdi dövrə uyğun – adekvat yetişdirmir. Qiymət formal bir şeydir, əsas olan real nəticədir. Məsələ ondadır ki, sadəcə oxuyub-danışmaqla şagird qabiliyyət sahibi olmur. Beyində proses getmir. Bir şeydə razı olmaq olar ki, oxuyub danışanda nitq inkişaf edir, amma təkcə nitqin inkişafı şagirdə nəyi dedirdəcək? Məktəblərimizdəki tədris üslubu yalnız natiqlik qabiliyyətini inkişaf etdirir. Natiqlik qabiliyyəti isə bildiyini ifadə etmək üçündür. Şagird nəyi ifadə etməlidir? Analiz qabiliyyəti yox, məntiqi düşüncə zəif, müqayisə etmək qabiliyyəti, fərqi aşkar etmək, oxşarlığı aşkar etmək, səbəbi göstərmə, nəticə çıxarma, arqument tapmaq – bunlar yoxdursa nəyə əsaslanıb danışmalıdır? Şagirddə bu qabiliyyətlər formalaşmırsa deməli şagird adekvat yetişmir.***

Universitet müəllimlərinin tələbələrə bildirdikləri irad "məntiq qırıqlığıdır". Məntiq zənciri formalaşmayan insanın əsassız şeylər danışmağı problemi var, "Baxta Şah Abbas", "Ələkbərin qapısındadır" deyib falçı cavabları verməyi var. Tələbəlik müddətində müəllimin verdiyi suala hər bəxtə-bəxt verdiyimiz cavabda müəllim məntiq zəncirimizin olmadığını qeyd edirdi.

Nəticədə adekvat şagirdlikdən-tələbəliyə qədəm qoyan adekvat gənc yox, nağılçı yetişmiş olur. Çünki 12 il ərzində yalnız oxuyub-danışmaqla məşğul olan şagird bircə danışmağı biləcək, amma nəyə əsasən danışdığını bilməyəcək. Universitetə qəbul olub şagird zəifliyini hiss etdikdə, əsassız danışdığını başa düşdükdə nəhəng bir boşluğa düşəcək. Professorun "cavabını əsaslandır" tələbi qarşısında özünü aciz hiss edəndə problemin nədə olduğunu başa düşərək növbəti sözləri deyəcək: bunu bizə öyrətməmişdilər. Bu məsələnin bir tərəfi.

Bundan əlavə, şagirdlərimiz ambisiyasız və xəyalpərəst yetişir, real düşünmürlər, reallığı dərketmə qabiliyyəti yoxdur. Onları qarşıda gözləyən rəqabəti görmürlər. Biz də o nəsil gənclərdən olduq ki, bir çala xəyalpərəst böyüdük, real görünməyən şeylər arzuladıq. Arzulamaq yaxşıdır, ambisiyan varsa. Ambisiya özünəgüvəndir, istəkdir. Arzu var, ancaq arzuya doğru hərəkət etmə planı yoxdur.

Həm də məqsədsiz gənclik yetişir. Misalçün, yuxarı sinif şagirdləri arasında adi bir sorğu keçirsək, belə bir sual qoysaq ki, həyatda məqsədin nədir? Bu suala neçə nəfər yeniyetməlikdən gəncliyə qədəm qoyan şagird tam, dolğun və real görünən bir cavab verəcək.

Keçək xəyalpərəstlik məsələsinə. Kim olacaqsan, 10 ildən sonra özünü hansı sahədə və ya harada görürsən sualına veriləcək cavabları təxmin edək: prezident, milyonçu, deputat, biznesmen.

Bu o da deməkdir ki, şagirdlərə reallığı dərketmə qabiliyyəti aşılanmır, reallıq hissi olmayan bir nəsil isə həyatda məqsəd tapa bilmir və başqalarının məsləhətini kor-koranə qəbul edir, qarşılaşa biləcəyi təhlükəni, atacağı addımın nəticəsini analiz etmir. Analiz edilmədən, düşünülmədən atılan addımlar isə gözlənilməz hadisələrə gətirib çıxara bilər. Atacağı addımın hansı nəticələrə gətirib çıxara biləcəyi ehtimallarını nəzərə almayan, vəziyyəti analiz etmək qabiliyyəti olmayan bir yeniyetmə-gəncin "nə olar, olar" fəlsəfəsi ilə hərəkət etməsi onu səhv yola apara bilər.

***Tədris üsulunu dəyişmək lazımdır. Elə bir üsulla ki, şagird əzbərləməkdən çox düşünməklə məşğul olacaq.***

## TBİLİSİ YOLLARINDA ELEKTRO-AVTOBUSLAR HƏRƏKƏT EDƏCƏK



Gələn il Tbilisinin yollarında elektro-avtobuslar hərəkət edəcək. Bununla bağlı dövlət büdcəsinin 2019-cu il layihəsində qeyd olunub.

Söhbət 90 ədəd Avropa standartlarına uyğun elektrik mühərrikli avtobuslardan gedir. Onların 30-u 8 metrlik, 60-ı isə 10 metrlik avtobuslar olacaq.

Büdcə layihəsinə əsasən, avtobusların istifadəyə verilməsi 2019-cu ilin sonuna qədər həyata keçirilməlidir.

"Bugünkü vəziyyətə görə şəhərdə 560 avtobus xidmət göstərir, rezerv olaraq isə 134 avtobus mobilləşdirilib. Xətdə çalışan 560 avtobusdan 120-si 2016-2017-ci illərdə əldə edilmiş CNG tipli təbbi qazla çalışan yeni avtobuslardır və rezervdə 24 ədəd avtobus var. Rezervi də nəzərə alaraq dəyişdirilməli olan avtobuslar 550-ni təşkil edir. Qeyd olunan layihə çərçivəsində müasir Avropa standartlarına uyğun elektrik mühərrikli munisipal avtobusların alınması həyata keçiriləcək. Məqsəd isə şəhər nəqliyyatı parkının yenilənməsi, yeni avtobuslarla doldurulmasıdır", - layihədə qeyd olunur.

Layihə Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə həyata keçirilir. Onun ümumi dəyəri 73 milyon laridir.

## NƏĞD ÖDƏMƏ ZAMANI MƏBLƏĞ NECƏ YUVARLAQLAŞDIRILACAQ



Gürcüstan Milli Bankı nəğd şəkildə ödəmə zamanı məbləğin yuvarlaqlaşdırılması metodunu və ondan istifadə qaydasını təsdiqləyib.

Qətnamədə qeyd olunduğu kimi, bütün sahibkar subyektlər nəğd pulla hesablama aparan zaman məbləğin yuvarlaqlaşdırılması metoduna əməl etmək məcburiyyətindədirlər. Ancaq nəğd olmayan hesablamanı dəyişmədən 1 tetri dəqiqliyi ilə həyata keçirə bilərlər.

"Nəğd formada hesablama zamanı məbləğin yuvarlaqlaşdırılması artırmaq və ya azaltmaqla təqribən 5-in tək rəqəminə qədər sonrakı prinsiplə baş verir. 1 və 2 tetriyə yuvarlaqlaşdırılmış ödənilməli olan məbləğ 0-a qədər azlıqla yuvarlaqlaşdırılır; 3 və 4 tetri ilə bitən ödənməli olan məbləğ artırılaraq 5-ə qədər yuvarlaqlaşdırılır; 6 və 7 tetri ilə bitən ödənməli olan məbləğ azlıqla 5-ə qədər yuvarlaqlaşdırılır; 8 və 9 tetri ilə bitən ödənməli olan məbləğ çoxluqla 10-a qədər yuvarlaqlaşdırılır", – deyə qətnamədə qeyd olunur.

Qətnamə 2019-cu ilin 1 yanvarından qüvvəyə minməlidir.

Bundan əlavə, Milli Bank 1 və 2 tetrilik qəpiklərin hazırlanması vaxtını də müəyyən edib. Qətnaməyə əsasən, 1 və 2 tetrilik qəpiklərin hazırlanması 2020-ci ilin sonuna qədər müəyyən edilib.

## REGİONLARLA ƏLAQƏLƏR XİDMƏTİNİN RƏHBƏRİ SOZAR SUBARİ QARATƏHLƏ İCTİMAİ MƏKTƏBİNDƏ OLUB



Qardabani meriyasının mətbuat xidmətinin yaydığı məlumata əsasən, regionlarla əlaqələr xidmətinin rəhbəri Sozar Subari Qaratəhlə ictimai məktəbində olub. S.Subari məktəbə İctimai kanalın "6-cı sinif şagirdindən ağıllısan ya yox" verilişində qalibi olduğu 3000 lari ilə əldə edilmiş kompüter texnikası və gürcü dilli kitablar verib.

Bundan əlavə, Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi məktəbə idman ləvazimatları verib.

Tədbirdə Qardabaninin majoritar deputatı Savalan Mirzəyev, Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili, Qardabani bələdiyyə məclisinin sədr müavini Rəfi Orucov, Kvemo Kartli qubernatorunun müavinləri Zaur Darğallı, Kaxa Koberidze və digər rəsmi şəxslər iştirak ediblər.

## MARNEULİDƏ CENN TƏŞKİLATININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

Oktyabrın 4-ü Marneuli bələdiyyəsinin mer vəzifəsini yerinə yetirən Zaur Tabatadze yerli özünüidarəetmənin digər rəhbər şəxsləri ilə birgə CENN təşkilatının nümayəndələri ilə görüşüb.

Xatırladaq ki, CENN təşkilatı Avropa Birliyinin maliyyə dəstəyi ilə 2018-ci ildən layihə həyata keçirir. Layihə "Su kasıblığını aradan qaldırmaq üçün" adlanır və onun məqsədi Gürcüstanın sosial müdafiəsiz və etnik əhalisinin sağlamlığının müdafiəsi və yaşayış şəraitinin yaxşılaşdırılmasına dəstək, diskmriminasiyanın aradan qaldırılması, suyun əlçatan olmasının təmin edilməsi, WASH (Su, sanitariya və gigiyena) standartların əsasının qoyulması və yerli əhalinin, maraqlanan başqa tərəflərin məlumatının artırılması yolu ilə fiziki infrastruktur və gigiyenik standartlar sahəsində dəyişikliklərə nail olmaqdır.

Qeyd edilməlidir ki, içməli suyun sanitariyası və gigiyenası sahəsində olan problemlərin effektli həlli üçün Marneuli meriyası aktiv şəkildə CENN-lə əməkdaşlıq edir.

WASH məsələlərin (Su, sanitariya və gigiyena) həlli məqsədi ilə cari ilin oktyabr ayından Marneuli bələdiyyəsinin Qızılhacılı kəndinin uşaq bağçasında birgə pilot layihələr həyata keçiriləcək. Layihələrin çərçivəsində içməli su boruları dəyişdiriləcək və filtrlər




montaj olunacaq, bağçanın hər iki qrupunun daxili interyeri təmir olunacaq.

Gələcəkdə uzunmüddətli əməkdaşlıq məqsədi ilə memorandum da imzalanıb. Təşəbbüs Avropa Birliyinin maliyyə dəstəyi ilə həyata keçirilən CENN-in "Su kasıblığını aradan qaldırmaq üçün" layihəsi çərçivəsində irəli sürülüb.

2018-ci ildə Marneuli bələdiyyəsində WASH şurası formalaşıb və onun tərkibinə yerli özünüidarəetmə nümayəndələri ilə yanaşı yerli sakinlər və başqa maraqlanan tərəflər də daxildir. Şura gələcəkdə WASH məsələlərin həllində və qeyri-formal tədris proqramlarında aktiv şəkildə iştirak edəcək.

## GÜRCÜSTANIN DİNİ MƏSƏLƏLƏR ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN RƏHBƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB



Bütün Gürcüstan Müsəlmanları İdarəsinin müftisi Hacı Yasin Əliyev, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının və Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Təhsil Şöbəsinin sədri Musa Hacıyev və İkinci Kosalı İslam Mədrəsəsinin müdiri Natiq Əliyev Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin rəhbəri Zaza Vaşakmadze ilə görüşüblər.

Görüşdə tərəflər Gürcüstan parlamenti tərəfindən təhsil müəssisələrindəki yataqxanalarda 18 yaşdan aşağı gənclərin qalması ilə bağlı qərarı müzakirə ediblər. Həmçinin Gürcüstanda yaşayan müsəlmanların bu yöndəki narahatçılıqları və dini təhsilin asanlaşdırılması istəkləri dilə gətirilib.

Zaza Vaşakmadze yaxın zamanda bir neçə nazirlik tərəfindən qurulacaq heyətlə bu mövzunun yenidən müzakirə olunacağını və hər kəsin razı qalacağı bir həll yolunun ortaya qoyulacağını vurğulayıb.

## QARDABANİ İES-NIN TİKİNTİSİNDƏ ÇALIŞAN FƏHLƏLƏR ETİRAZ AKSİYASI KEÇİRİBLƏR

Qardabanidə İstilik Elektrik Stansiyasının (İES) tikintisində çalışan 50-yə yaxın fəhlə etiraz aksiyası keçirib. Aksiya iştirakçıları rəsmi olaraq əmək müqaviləsi bağlanılmasını və iş şəraitinin yaxşılaşdırılmasını tələb ediblər. Etiraz aksiyasına görə obyektdə işlər qismən dayanıb və stansiyada yalnız Çin vətəndaşı olan işçilər işləyiblər.



Aksiya iştirakçıları əmək müqavilələrinin olmamasını, sığortadan yararlana bilməmələrini, obyektdə içməli su, yeməkxana, tikinti sahəsinə getmək üçün nəqliyyatın olmamasını bildiriblər. Qeyd ediblər ki, infrastruktur yaradılmayıb və hətta iş paltarlarını dəyişmək üçün yer belə yoxdur.

Fəhlələrin dediyinə görə, tikinti obyektində təhlükəsizlik qaydaları qorunmur. İşə götürən Çin şirkəti ilə dil bilmədiklərinə görə ünsiyyət qura bilmirlər.

Fəhlələrin bildirdiyinə görə, şirkət onların tələblərini yerinə yetirmək üçün üç günlük vaxt istəyib. Aksiya iştirakçıları ilə Qardabani meri Ramaz Budağaşvili görüşüb. Mer təşəbbüs qrupu ilə birgə şirkət nümayəndələri ilə danışıqlar aparıb. Bir saatlıq görüşdən sonra Qardabani meri bildirib ki, şirkət müəyyən güzəştlərə gedib. R.Budağaşvilinin sözlərinə görə, içməli su problemi, müqavilələr, geyim otağı və yeməkxana kimi problemlər həll olunacaq. Problemlərin digər hissəsinin – nəqliyyat və əmək haqlarının artırılması məsələsinin həlli üçün şirkət üç günlük vaxt istəyib. Tələblərin tam yerinə yetirilməməsi halında fəhlələr aksiyanı davam etdirəcəklərini bildiriblər.

## RUSTAVİDƏN TBİLİSİYƏ MİKROAVTOBUSLARLA GEDİŞ HAQQI 2 LARİYƏ QƏDƏR ARTACAQ

Rustavi – Tbilisi istiqamətində hərəkət edən mikroavtobuslarla gediş haqqının 2 lariyə qədər artırılması planlaşdırılır. Bu haqda "İntertrans" şirkətinin rəhbərliyi Kvemo Kartli qubernatoru və Rustavi meriyasının nümayəndələri ilə görüşü zamanı qeyd edib. Şirkət nümayəndələrinin dediyinə görə, şirkət böhrandadır və marşrut taksilərinin yanacaq və xidmət dəyərini ödəyə bilmirlər. Şirkətə bir nəfəri Rustavidən Tbilisiyə aparmaq 2 lari 13 tetriyə başa gəlir. Yerli və bölgə hakimiyyət nümayəndələri məsələ ilə bağlı müzakirə aparıblar. Onların dediyinə görə, şirkətin işinin öyrənilməsi üçün yaxın gələcəkdə işçi qrupun yaradılması planlaşdırılır. Qrup gediş haqqının dəyərini və sərnişinlərin təhlükəsiz hərəkət etməsini araşdıracaq və tənzimləyəcək.

## MARNEULİ BƏLƏDİYYƏSİNDƏ YENİ UŞAQ BAĞÇASININ AÇILIŞI OLUB

Oktyabrın 8-i Marneli bələdiyyəsinin Algeti kəndində 150 uşaq üçün nəzərdə tutulmuş yeni uşaq bağçasının açılışı olub.

Binanın bayır və daxili infrastrukturu müasir standartlara uyğun şəkildə qurulub və xüsusi ehtiyacı olan uşaqlar üçün şərait də nəzərdə tutulub.

Tədbirdə Kvemo Kartli qubernatorunun müavinləri Kaxa Koberidze və Zaur Darğallı, Marneulinin majoritar deputatları Tamaz Naveriani və Ruslan Hacıyev, həmçinin bələdiyyənin rəhbər şəxsləri iştirak ediblər.

Algetinin uşaq bağçasının layihəsi regionlarda həyata keçiriləcək layihələr fondunun və yerli büdcənin maliyyələşdirməsi ilə baş tutub. Layihənin dəyəri 631000 laridir.

## MARNEULİ ŞƏHƏRİNDƏ UŞAQ ATRAKSİONLARININ QURAŞDIRILMASI PLANLAŞDIRILIR

Xada dərəsində öldürülmüş Rayan və Lora Smitlərin Marneulidə uşaq atraksionlarının quraşdırılması təşəbbüsü ilə bağlı bələdiyyənin rəhbər şəxsləri Amerika Birləşmiş Ştatlarının bölgə nümayəndəsi ilə görüşüblər.

Görüşdə tərəflər qeyd olunan təşəbbüsün həyata keçirilməsi üçün lazım olan plan haqqında müzakirələr aparıblar. İndiki mərhələdə uşaq meydançasının qurulması üçün sahənin ayrılması məsələsi üzərində çalışmalar gedir. Meydança üçün şəhər miqyasında üç ərazi seçilib və onlardan birinə tərəflər arasında razılığa gəldikdən sonra qərar veriləcək. Gələcəkdə həmin ərazidə uşaq atraksionları yerləşdiriləcək.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

Yeni YOL

15 OKTYABR 2018-Cİ İL
№016 (75)

# TBİLİSİDƏ BÜLBÜLCAN HAQQINDA GÜRCÜ DİLİNDƏ NƏŞR OLUNMUŞ KİTABIN TƏQDİMATI KEÇİRİLİB



Tbilisidə Azərbaycanın böyük sənətkarı, xanəndə Bülbülcan (Əbdülbaqi Zülalov) haqqında gürcü dilində nəşr olunmuş “Əbdülbaqi” kitabının təqdimat mərasimi keçirilib.

Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyində təşkil olunmuş tədbir Azərbaycanın Mədəniyyət Nazirliyinin dəstəyi, Beynəlxalq Muğam Mərkəzinin təşəbbüs və təşkilatçılığı ilə baş tutub.

Tədbirdə bildirilib ki, “Əbdülbaqi” kitabı bu yaxınlarda Bakıda işıq üzü görmüş, Əbdülbaqi Zülalova həsr edilən “Bülbülcan” kitabının gürcü dilinə tərcümə olunmuş versiyasıdır.

Mərasimdə çıxış edən M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin direktoru L.Əliyeva kitabın Gürcüstan ictimaiyyəti üçün əhəmiyyətindən danışıb. O, qeyd edib ki, Əbdülbaqi Zülalov kimi sənətkarlar Azərbaycan və Gürcüstan arasında mədəni əlaqələrin əsasını qoyan şəxslərdən biri olub.

Kitabın müəlliflərindən biri Gülhüseyn Kazımlı Azərbaycanda muğam sənətinə və muğam ifaçılarına verilən yüksək qiymət və qayğıdan danışıb: “Əbdülbaqi Zülalov ömrünün 30 ilini Tbilisidə yaşayıb. “Bülbülcan” təxəllüsü ona məhz bu şəhərdə verilib. O, muğamla yanaşı, xalq mahnılarının da mahir ifaçısı olub. Bülbülcan bir neçə şah və çarın qarşısında da çıxış edib, ifasına görə həmişə yüksək qiymət və təriflərə layiq görülüb. Təəssüf ki, onun səs yazıları qalmayıb. Amma buna baxmayaraq, Bülbülcanın sənətinin şöhrəti bu gün də yaşayır”.

Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müşaviri Giorgi Qeqeçkori çıxışında Bülbülcana həsr olunmuş kitabın müəlliflərini təbrik edib: ““Əbdülbaqi” kitabı çox dəyərlidir. “Bu kitab muğam sənətinin qorunması və gələcək nəsillərə ötürülməsinin bir nümunəsidir”.

Daha sonra çıxış edən Gürcüstanın Xalq Mahnı və Musiqi alətləri Muzeyinin direktoru Rezo Qotrikadze Əbdülbaqi Zülalovun qeyri-adi ifaçılıq məharəti olduğunu deyib: “Onun Tbilisi və Bakı ilə yanaşı, İranda da böyük şöhrəti olub. Əbdülbaqinin ifası hər zaman hamını, hətta şahları belə heyran qoyub. Məhz Əbdülbaqi kimi görkəmli muğam ifaçılarının sayəsində Azərbaycan muğamı YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib”.

Nəşri gürcü dilinə tərcümə edən yazıçı-tədqiqatçı Mirzə Məmmədoğlu kitabın Azərbaycan dilindəki versiyadan fərqli olaraq “Bülbülcan” deyil, “Əbdülbaqi” kimi adlandırılmasını belə izah edib: “Bir çox gürcü mənbələrində Əbdülbaqi Zülalov “Əbdülbaqi” kimi göstərilib. Gürcü dilində işıq üzü görən kitaba Azərbaycan dilli versiyadan fərqli olaraq, əlavə foto və digər materiallar da daxil edilib”.

Sonra gürcü ziyalıları çıxış edərək Azərbaycan musiqi və poeziyasının Gürcüstana təsirindən, qədim Tiflisdə muğama olan böyük sevgi və rəğbətdən, Əbdülbaqinin sənətinə Tiflisdə verilən yüksək qiymətdən söz açıblar.

Mərasimdə VI “Muğam televiziya müsabiqəsi”nin Qran-pri mükafatçısı, gənc xanəndə Almaxanım Əhmədli muğam parçaları ifa etməklə tədbirə xüsusi ovqat qatıb.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin nümayəndələri, azərbaycanlı və gürcü ziyalılar, incəsənət adamları, mədəniyyət xadimləri və sənətsevərlər iştirak ediblər.

# TANINMIŞ REJİSSOR ANDREY ZVYAQİNTSEV TBİLİSİDƏ MASTERKLAS KEÇƏCƏK



Gürcüstanın Şota Rustaveli adına Dövlət Teatr və Kino Universitetinin təşkilatçılığı və “adjaranet.com”un dəstəyi ilə “Müasir kino ustadları” adlı təhsil layihəsi həyata keçirilir. Layihənin məqsədi Gürcüstanda XXI əsrin kinoşünaslıq formalarının əsasının qoyulması və inkişafıdır.

Sayca 2-ci payız sessiyası çərçivəsində Gürcüstana tanınmış rusiyalı rejissor Andrey Zvyaqintsev qonaq gələrək masterklas keçəcək.

Andrey Zvyanqintsevin imzası bir tərəfdən kəskin sosial-siyasi mesajlarla, digər tərəfdən isə dərin və poetik narrativi ilə fərqlənir. Rejissor dünyanın bir çox aparıcı film festivallarında tanınır: “Qayıdış” debüt filmi Venesiya Film Festivalının əsas mükafatı olan “Qızıl Şir”ə layiq görülüb, “Elena”, “Leviafan”, “Sevgisizlik” filmləri Kann Film Festivalının qalibləri olublar. Qeyd edilməlidir ki, bu il Andrey Zvyanqintsev Kann jürisinin üzvü də olub.

22-23 oktyabrda masterklas Teatr və Kino Universitetində keçiriləcək. 24 oktyabrda isə “Sevgisizlik” filminin rejissor versiyasının nümayişi olacaq. Film başa çatdıqda iştirakçı auditoriyanın müəlliflə açıq müzakirəyə qoşulmaq imkanı olacaq.

# GÜRCÜSTANIN ÜMUMİ XARİCİ DÖVLƏT BORCU NƏ QƏDƏRDİR

Gürcüstanın Azərbaycana olan borcu 7,976 milyon dollar təşkil edir. Bu barədə Gürcüstanın Maliyyə Nazirliyi məlumat yayıb. Cari ilin sentyabr ayının 30-na olan məlumata əsasən, aylıq müqayisədə Gürcüstanın Azərbaycana borcu dəyişməz olaraq qalıb.

Gürcüstanın ümumi xarici dövlət borcu avqust ayı ilə müqayisədə 28,478 milyon dollar azalaraq 5 milyard 140,098 milyon dollar olub. Bu məbləğin 5 milyard 014,525 milyon dolları hökumətin payına düşür.

Gürcüstanın Almaniya, Yaponiya və Fransaya olan borcu isə aylıq müqayisədə azalaraq müvafiq olaraq 276,966 milyon dollar, 207,807 milyon dollar və 192,976 milyon dollar təşkil edib.

Gürcüstanın Türkiyə (15,297 milyon dollar), Rusiya (63,567 milyon dollar) və Ermənistana (9,023 milyon dollar) olan borcu aylıq müqayisədə dəyişməz olaraq qalıb.

# DÜNYANIN ƏN YAXŞI UNİVERSİTETLƏRİNİN ADI AÇIQLANIB




İngiltərənin “Times Higher Education” jurnalı dünyanın ən yaxşı universitetlərinin adını açıqlayıb. Sıralamaya 500 universitet daxildir.

Siyahı hazırlanarkən təhsil müəssisələrinin elmi tədqiqatları, beynəlxalq araşdırmaları, gəlirləri və ötən ilki siyahıda sıralaması nəzərə alınıb.

Siyahıda Böyük Britaniya, ABŞ və Yaponiyadan sonra ən çox ali təhsil müəssisəsi olan Çin yer alıb. Ümumilikdə siyahıya Çindən 72 universitet daxil edilib.

Sıralamada 1-ci yeri İngiltərənin Oksford Universiteti tutur. Universitet 3 ildir ki, birinci yerdədir.

İlk dəfə siyahıya İraqın ən böyük ali təhsil müəssisəsi olan Bağdad Universiteti də daxil edilib. Türkiyədən isə siyahıda Sabancı və Koç universiteti yer alıb.

# SON İKİ İLDƏ AZƏRBAYCANIN 1222 VƏTƏNDAŞI GÜRCÜSTANDA İKİLİ VƏTƏNDAŞLIQ ALIB



Gürcüstanın Ədliyyə Nazirliyinin yaydığı məlumata əsasən, son iki ildə Azərbaycanın 15 vətəndaşı Gürcüstan vətəndaşlığı alıb.

Nazirlikdən bildirilib ki, 2016-cı ilin sentyabrın 16-dan 2018-ci ilin avqustun 17-dək olan dövr ərzində 199 Azərbaycan vətəndaşının Gürcüstan vətəndaşlığına xitam verilib.

Azərbaycanın 1222 vətəndaşı isə Gürcüstanda ikili vətəndaşlıq alıb.

Hesabat dövründə ümumilikdə 15 229 əcnəbiyə Gürcüstan vətəndaşlığı verilib. Onların əksəriyyətini - 6 447 nəfərini Rusiya vətəndaşları təşkil edib. İkili vətəndaşlıq üçün isə 58 143 xarici vətəndaş müraciət edib ki, onların böyük əksəriyyəti 41 631 nəfər olmaqla Rusiya vətəndaşları olub.

Qeyd olunan dövrdə Azərbaycanın 308 vətəndaşı Gürcüstanda daimi yaşayış icazəsi alıb. Üç Azərbaycan vətəndaşına isə investisiyalar əsasında Gürcüstanda daimi yaşayış izni verilib. Ailəsinə qovuşmaq məqsədilə 144 azərbaycanlı yaşayış icazəsi, 321 Azərbaycan vətəndaşı isə Gürcüstanda işləmək hüququ əldə edib.

Azərbaycanın 25 vətəndaşına isə təhsil məqsədilə yaşayış izni təqdim olunub.

# GÜRCÜSTANDA ORTA AYLIQ ƏMƏK HAQQI NEÇƏDİR

2017-ci ildə Gürcüstanda orta aylıq əmək haqqı ötən illə müqayisədə 6,3 faiz artıb və 999.1 larini təşkil edib.

2017-ci ildə iş yerlərinə əsasən ən yüksək əmək haqqı maliyyə və sığorta işlərində qeydə alınıb (2008.3 lari); Peşə, elmi və texniki işlərdə 1594.5 lari; İnşaat sahəsində1465.7 lari və məlumat və kommunikasiyalar sahəsində 1425.7 lari qeydə alınıb.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.